# Azərbaycan multikulturalizminin siyasi banisi



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir”mövzusunda konfrans keçirilmişdir. Konfrans iştirakçıları ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri düzərək dahi şəxsiyyətin xatirəsinə böyük hörmət və ehtiramlarını bildirmişlər. Konfransda ilk olaraq Azərbaycanın Dövlət Himni səslənmiş, Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyətinin başçısının müavini Ətayə Osmanova qonaqları və konfrans iştirakçılarını salamlayaraq ümummilli lider Heydər Əliyevin irsinin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışdığını qeyd etmiş və bu ənənənin bu gün ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulamışdır. Sonra “Heydər Əliyev və multikulturalizm” adlı videoçarx nümayiş olunmuşdur. Tədbirdə çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin aparıcı məsləhətçisi Araz Qurbanov və Azərbaycan Texniki Univesitetinin professoru, fəlsəfə elmləri doktoru Əyyub Kərimov Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşməsində, tolerantlıq və multikulturalizm ənənələrinin yüksək qiymətləndirilməsində və milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanmasında böyük xidmətləri olduğunu bildirmişlər. Tədbir diskusiya şəklində davam etmiş və mövzu ətrafında çıxışlar olmuşdur.

# Tarix yaradan şəxsiyyət

Bəşəriyyət yarandığı gündən çox böyük şəxsiyyətlərə, sərkərdələrə və onların əldə etdiyi qələbələrə şahidlik edib. Bu şəxsiyyətlərin qurub yaratdıqları, miras qoyduqları dövlətçilik ənənələri öz xalqlarının yüz illər sonra da mövqeyini müəyyənləşdirmişdir. Məhz buna görə də belə şəxsiyyətlər tarixdə dahi, öndər, lider kimi öz layiqli yerlərini tutublar.

Biz ümummilli lider, ulu öndər Heydər Əliyev haqqında danışarkən qeyd etməliyik ki, həqiqətən Heydər Əliyev həm tarixi yaradan, həm də tarixi şəxsiyyət idi. Ulu öndər Heydər Əliyev o şəxslərdəndir ki, o özü bir tarix, salnamə yaratmış, zamanın axarını nizamlamaq qüdrətinə sahib olmuşdur. Dövlət idarəçiliyinin ən çətin məsələlərini vaxtında həll etmək bacarığı və mürəkkəb dünya siyasi prosesində “yarım addım” irəlidə olmaq bacarığı onu müasir dövrün ən aparıcı dövlət xadimlərindən də önə çıxarır. Bu gün onun fəaliyyətinin, gərgin əməyinin bəhrələrindən təkcə xalqımız yox, bütün region ölkələri, böyük İslam dünyası və o cümlədən türk xalqları faydalanır. Məhz elə buna görə də ulu öndərin adı dünyanın hər yerində uca tutulur, xatirəsi ehtiramla anılır.

Məlum olduğu kimi, ümummilli lider Heydər Əliyev 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra respublikamızın tərəqqisi üçün fundamental tədbirlər görməyə başladı. Ümummilli lider Heydər Əliyevin sistematik səyləri və yorulmaz fəaliyyəti nəticəsində 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin sovet Azərbaycanında dövlət dili təsbit olundu. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, fikir, düşüncə sahiblərinin, yaradıcı insanların keçmiş ittifaq miqyasında yubileylərinin keçirilməsi, elmi, ədəbi, mədəni abidələrimizin planlı şəkildə tədqiqi ulu öndərin milli dövlətçiliyimizin ideoloji əsaslarının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü fəaliyyətinin səmərəli nəticələri idi. Ümummilli lider Heydər Əliyevin praqmatik və rasional strateji siyasi kursu nəticəsində müstəqillikdən sonra da dövlər quruculuğu sahəsində əsaslı işlər görüldü. Birinci növbədə ölkədə sabitlik əldə edildi, avantürist subyektlərin bölücü fəaliyyəti neytrallaşdırıldı, erməni işğalının qarşısının alınması istiqamətində müəyyən strateji və taktiki gedişlər edildi. 1994 - cü ildə atəşkəsin əldə olunması nəticəsində dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından əlverişli siyasi zəmin yaradıldı. “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” deyən ümummilli lider Heydər Əliyev iradəsinin bəhrəsi olan “Əsrin Müqaviləsi” Azərbaycanın bir müstəqil dövlət kimi beynəlxalq arenadakı mövqeyini möhkəmləndirdi. Bu gələcəyə hesablanmış uzaqgörən siyasətin nəticəsi idi. Ümummilli lider Heydər Əliyevin reallaşdırdığı iqtisadi layihələr nəticəsində iqtisadi tənəzzülün qarşısı alındı və Azərbaycan regionun lider dövlətinə çevrildi. Ordu quruculuğu sahəsində aparılmış islahatlar nəticəsində qısa müddət ərzində ən müasir silahlarla təmin olunmuş, güclü ordu yaradıldı.

Bu gün biz fəxrlə deyə bilərik ki, ümummilli lider Heydər Əliyevin görmək istədiyi Azərbaycan reallığa çevrilib və ölkəmiz Heydər Əliyev siyasi kursu ilə inamla irəliləyir. 2003-cü il - Heydər Əliyev Prezidentliyinin 10-cu ilində Azərbaycan dövlətçiliyini rəvan və perspektivi aydın görünən inkişaf magistralına çıxardı. Ölkənin gələcək idarəçiliyini siyasi varisinə - özü qədər inandığı gənc liderə, İlham Əliyevə təhvil verdi.

27 sentyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan möhtərəm İlham Əliyevin şəxsən başçılığı ilə müzəffər Azərbaycan Ordusu Qarabağı azad etmə əməliyyatına başladı. Azərbaycan əsgər və zabitləri Ali Baş Komandanın rəhbərliyi ilə 21-ci əsrdə müharibənin aparılmasında əldə etdikləri uğurlarla dünya hərb tarixinə adlarını qızıl hərflərlə yazdılar. 44 gün davam edən Vətən Müharibəsi zamanı Azərbaycan Respublikasının dövlət sərhədləri bərpa edildi və noyabr ayının 9-dan 10-na keçən gecə işğalçı Ermənistan ordusunun tam kapitulyasiyası ilə nəticələndi. 2023-cü ilin sentyabrında keçirilmiş və cəmi bir gün davam edən antiterror əməliyyatı nəticəsində Azərbaycanın suveren ərazisində qalmış erməni tör-töküntüləri tamamilə təmizləndi. Biz bütün şəhidlərimizin ruhu qarşısında baş əyir və qazilərimizə şəfa diləyirik.

Bu gün əminliklə demək olar ki, ulu öndər, ümummilli lider Heydər Əliyevin ideya və arzuları yaşayır. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha parlaq gələcəyə doğru inamla irəliləyəcəkdir.

**Araz AĞAYEV,**
**Qəbələ RİHB-nın Kiçik Pirəli kənd İƏD üzrə nümayəndəsi.**

# Fövqəladə Hallar Nazirliyi işçilərinin peşə bayramı

Fövqəladə Hallar Nazirliyinin yaradılmasının 18-ci ildönümü münasibətilə tədbir keçirib. Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev, Şimal-qərb Regional Mərkəzinin rəhbərliyi və Fövqəladə Hallar Nazirliyinin regionda fəaliyyət göstərən digər qurumlarının əməkdaşları iştirak ediblər. İlk öncə Qəbələ şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin



xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzülərək dahi şəxsiyyətin əziz xatirəsi ehtiramla yad edilmiş, sonra tədbir Regional Mərkəzin akt zalında davam etmişdir. Çıxış edənlər Ümummilli lider Heydər Əliyevin “Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan qaldırmaqdan daha asandır” sözlərini əsas gətirərək, Ölkə başçısının cənab İlham Əliyevin Fövqəladə Hallar Nazirliyinin qarşısında qoyduğu vəzifələri bu gündən sonra da layiqincə yerinə yetirmək üçün hər bir əməkdaşın üzərinə böyük vəzifələrin düşdüyünü bildirilmiş, həmçinin ötən 18 il ərzində nazirliyin strukturunun təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr potensialının gücləndirilməsi, beynəlxalq əlaqələrin inkişafı sahəsində görülən işlər barədə məlumat verilmişdir. Mülki müdafiə, əhalinin təbii fəlakətlərdən və texnogen qəzalardan, mümkün terror hadisələrindən qorunması, yanğın təhlükəsizliyinin və su hövzələrində təhlükəsizliyin təmin olunması istiqamətində görülən işlər və həyata keçirilən tədbirlər diqqətə çatdırılmışdır. Sonda Fövqəladə Hallar Nazirliyinin struktur fəaliyyətinə aid videoçarx izlənilmişdir.

# Onların tarixi günü

Ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə təsis edilmiş 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə rayonun ədliyyə işçiləri, hüquq-mühafizə orqanlarının əməkdaşları ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsi önünə gül dəstələri düzərək, dahi şəxsiyyətə öz dərin hörmət və ehtiramlarını bildirmişlər.

**Foto S. Umuyevindir**



# Vətənpərvərlik mahnıları ilə

Qəbələ rayon musiqi məktəbində 31 Dekabr Dünya Azərbaycanlıların Həmrəyliyi Günü və Təqvim ilinin başlanğıcı- Yeni il münasibəti ilə məktəb şagirdlərinin hesabat konserti keçirilmişdir.Tədbirdə məktəbin təhsil-tədris kollektivi, musiqi məktəbinin müxtəlif şöbələrinin şagirdləri vətənpərvərlik mövzularında mahnı və şeirlərlə, musiqi ifaları ilə çıxış etmişlər.Şagirdlərin çıxışları maraqla qarşılanmışdır.



**BİBİXANIM.**

# Yeni il şənliyi ərəfəsində yanğın təhlükəsizliyi

Yeni il şənliklərində və insanların kütləvi toplaşdıqları digər yerlərdə tədbirlər keçirilən zaman:

ən azı iki ehtiyat çıxış qapısı qoyulan, tikinti norma və qaydalarına tam cavab verən, 2 mərtəbədən yuxarı olmayan və yanmayan arakəsmələri olan binalarda tədbir keçirilməsinə icazə verilir;

bəzəkli şam ağacı qurularkən yerə möhkəm bərkidilməli və elə qurulmalıdır ki, ağacın budaqları divara, tavana dəyməsin;

otaqlarda işıqlandırma sistemi olmadıqda tədbir yalnız gündüzlər keçirilməlidir;

şam ağacının bəzədilməsində istifadə olunan lampalar ardıcıl qoşulmalı və bu zaman gərginlik 12 voltdan, cərəyan 25 vatdan artıq olmamalıdır;

əgər elektrik təsərrüfatında nasazlıq yaranarsa (naqillərin qızması, lampaların yanıb-sönməsi, qığılcım çıxması və s.), cərəyan dərhal ümumi dövriyyədən ayrılmalıdır.